Yanvarın 31-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Elm və Təhsil Nazirliyinin Peşə Təhsili üzrə Dövlət Agentliyinin Maliyyə və təsərrüfat şöbəsinin müdir müavini vəzifəsinə namizədlər Elvina Məmmədovanın və Vüsal Məmmədovun ümumi müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. Hər iki şikayətin qismən təmin edilməsi və yenidən müsahibənin təşkili barədə Şura tərəfindən qərarlar qəbul olunub.